# Novruz dünya xalqları arasında sülhü tərənnüm edir

## *Türkdilli dövlətlərdə Novruz bayramı daha böyük şövqlə qeyd olunur*



**Azərbaycan xalqı min illər boyu bu Novruz bayramını keçirmiş, arzu və istəklərini bu bayramda ifadə etmişdir. Təsadüfi deyil ki, Azərbaycan Çar Rusiyasından qurtulandan sonra Azərbaycandakı milli bayramlardan biri də Novruz bayramı idi. 1919-1920-ci illərdə bu bayram Azərbaycan xalqı tərəfindən dövlət səviyyəsində keçirilmişdir. 1920-ci ilin aprelindən sonra isə bu bayramın rəsmi dövlət şəklində keçirilməsi qadağan olundu. Lakin hansı formada olursa-olsun, Azərbaycan xalqı çərşənbələri və Novruz bayramını uğurla keçirirdi. Ona görə də, Novruz bayramı min illər boyu Azərbaycan xalqının birləşməsi deməkdir, bir ideya uğrunda mübarizəsi deməkdir. Eyni zamanda, Azərbaycan xalqının dünya xalqlarına humanizmi və məhəbbəti deməkdir.**

Xoşbəxtlikdən Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Novruz ənənələri yenidən vüsət aldı. Xüsusilə də, Azərbaycanın birinci vitse-prezidenti Mehriban xanımın Novruz bayramı ilə bağlı himayəçiliyi və bu bayramımızın dirçəldilməsi, bunun dünyaya töhfələr verməsi onu göstərir ki, Azərbaycan dövləti, Prezident İlham Əliyev, birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən bu bayrama xüsusi önəm verilir. Ümummilli Lider Heydər Əliyev də həmişə Novruz günlərində bir çox tədbirlərin iştirakçısı olurdu.

44 günlük Vətən müharibəsindən sonra Şuşada ilk Novruz tonqalı qalandı. İnsanlar 30 ildən artıq idi ki, bunu gözləyirdilər. Tarixi torpağımızda ilk bayram ənənələri, şənlikləri keçirildi.

Bu gün Azərbaycanın dövlət suverenliyi bərpa olunub və Novruz Azərbaycanın bütün torpaqlarında böyük sevinc hissi ilə keçirilir.

Azərbaycanda eyni zamanda Novruz bayramını dünya bayramına çevirmək üçün, dünya xalqlarının əmin-amanlığına xidmət etmək üçün onu təbliğ edir. Bu gün demək olar ki, türkdilli dövlətlər Novruz bayramını daha böyük şövqlə qeyd edir. Bu bayramı dünya bayramlarına qatmaq üçün əlindən gələni edir. Çünki bu bayramın mahiyyətində ədalət, bərəkət, var-dövlət, halallıq, səmimiyyət, inam, ehtiram var. Bütün bu cəhətlərə görə də Novruz dünya bayramları içində öz yerini tutan bayramdır.

Novruz əslində bütün dünyaya xidmət edir, dünya xalqları arasında sülhü tərənnüm edir. Dünyanın azad, xoşbəxt yaşaması üçün belə bayramlara həmişə ehtiyac var. Bu gün də Azərbaycan bu bayramın böyük ideoloqu, təbliğatçısı olmaqla yanaşı onu bütün dünyaya tövsiyə edir.